*Vəsiyyət:*

***"Başdaşıma yaşadığım illəri qoyub, doğulub-öldüyüm illəri yazmayın. Bilirəm, deyəcəksiniz: Yazıq, gəldi, yaşamadı, getdi."***

*(Akif Şahverdiyev)*

# Akif Şahverdiyev - anım günü

**"Hərənin qəlbində bir nisgil var. Hərənin könlündə kiminsə yeri görünən boşluğu var. Ayrılığına dözə bilmədiyimiz adamlar yadımıza düşdükcə ürəyimizdən kövrək bir istək keçir - onunla görüşmək istəyi. Lakin bu mümkünsüzlüyü bildiyimizdən həsrətini çəkdiyimiz kəsin surətini xəyalımızda canlandırıb onun özünə yanıqlı-yanıqlı bir şikayət edirik: Sənsiz yaman darıxmışam..." (Akif Şahverdiyev. 8 may 1997-ci il)**

Bəli, doğrudan da belədir. İnsan, ona əziz və doğma olan bir kimsəni həmişə xatırlayır, yoxluğuna dözə bilmir. Onunla keçirdiyi xoş günlər, saatlar bir-bir gəlib göz önündən keçir. Yaxşı insan isə heç vaxt unudulmur. Əbədi ürəklərə köçür.

## *İyun ayının 13-ü*

***peşəkar jurnalist, pedaqoq, yazıçı, eyni zamanda gözəl insan, böyük ürək sahibi Akif Bəşir oğlu Şahverdiyevin vəfatından iki il ötür. Yoxluğu, ailəsi, dostları, həmkarları və tələbələrini sarsıdır. Onun yeri elm ocaqlarının auditoriyalarında, Nəşriyyat binasının redaksiyalarında, qohum-qonşu içində, ən əsası ziyalı bir ailəsinin yanında görünür.***

Akif Şahverdiyev uzun illər Azərbaycan Milli Mətbuatında müxtəlif vəzifələrdə çalışmış, ömrünün demək olar ki, çox hissəsini bu sahəyə həsr etmişdir. Belə ki, Müdafiə Nazirliyinin əmri ilə "Azərbaycan Ordusu" qəzetində, Azərbaycan Respublikası Hərbi Dəniz Qüvvələrinin "Xəzərin keşiyində" qəzetində, "Azdövyerqurlayihə" İnsitutunun "Yer" qəzetində, "Ana Vətən" qəzetində, "Press Əks-Səda" qəzetində, "And" qəzetində, "Ədəbiyyat" qəzetində, "Nyu-Media" qəzetində, "Sabah" qəzetində çalışıb. Müxtəlif mətbuat orqanlarında 159-dan çox publisist məqaləsi, 110-a yaxın hərbi vətənpərvərlik və vətənpərvərlik mövzusunda məqaləsi, kitablar haqqında 32 rəy və resenziyası, jurnalistikaya aid 25-dən artıq məqaləsi çap edilib. Haqqında 110 məqalə işıq üzü görüb. Bədii yaradıcılığı 17 mətbuat orqanında işıqlandırılıb. 7 qəzetdə hazırlanmış xüsusi buraxılışın redaktoru olub.

***Pedoqoji fəaliyyətinə gəlincə, bir neçə universitetdə - Naxçıvan Universitetində (1 oktyabr 1999-30 iyul 2001, fakultə: jurnalistika), Cənubi Rusiya Humanitar İnstitutunda (5 oktyabr 1999, baş müəllim, fakultə: hüquq, iqtisadiyyat və tərcümə (linqvistika)), Bakı Ali Pedaqoji Qızlar Seminariyasında (2 sentyabr 2002, fakultə: jurnalistika), Odlar Yurdu Universitetində (1 sentyabr 2003, fakultə: hüquq və beynəlxalq münasibətlər (jurnalistika ixtisası üzrə)), Bakı Avrasiya Universitetində (15 sentyabr 2006, fakultə: jurnalistika), Qərb Universitetində (1 sentyabr 2001-17 avqust 2015, fakultə: jurnalistika) dərs deyib.***

1991-ci ilin fevralında 63 saylı seçki dairəsi üzrə XIX çağırış Sumqayıt şəhər Xalq Deputatları Sovetinə deputatlığa namizəd kimi qeydə alınıb. Sentyabr 1992-ci ildə Azərbaycan Jurnalistlər Birliyinin üzvü olub.

1994-cü ildə Jurnalistlərin ümumrespublika yaradıcılıq müsabiqəsinin qalibi olub.

***31 may 1999-cu ildə Azərbaycan Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitunda "1990-2000-ci İllərdə Azərbaycanda Ali Təhsilin İnkişaf Yollarının Pedaqoji Mətbuatda Əksi " mövzusunda dissertasiya müdafiə edib.***

***18 sentyabr 1993-cü ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisinin 353/RM saylı əmri ilə ona "baş leytenant" hərbi rütbəsi verilib.***

Qarabağ Müharibəsi Veteranıdır. (4 may 1999-cu il. Nəsimi Rayon Hərbi Komissarlığı. Vəsiqə M/V N:030019)

Mart 2003-cü il Mətbuat Şurasının təsis qurultayının, 24 aprel 2004-cü il Mətbuat Şurasının II Qurultayının, 21 may 2005-ci ildə isə Azərbaycan jurnalistlərinin (Mətbuat Şurasının) III Qurultayının iştirakçısı olub.

25 mart 2005-ci ildə Rusiya Federasiyasının Cənubi Rusiya Humanitar İnstitunun sosial-humanitar intizam kafedrasının dosenti elmi adına layıq görülüb.

1 noyabr 2008-ci ildə Mədəniyyət və Turizm Nazirliyində mədəniyyətşünaslıq üzrə Elmi-Metodik Mərkəzin maddi-mənəvi irs bölməsinin müdiri vəzifəsinə təyin edilib.

2006-cı ildə"Odlar Yurdu" universitetinin Elmi Şurasının qərarı ilə (Elmi Şuranın sədri professor Əhməd Vəliyev) "Azərbaycan Mətbuat Tarixi" kitabının tərtibi bu universitetin jurnalistika, dil və ədəbiyyat kafedrasının müəllimi Akif Şahverdiyevə həvalə olunub. Akif Şahverdiyevin böyük zəhməti sayəsində ərsəyə gələn kitab Azərbaycan Respublikası Təhsil Nazirliyinin 30.03.2006 tarixli 181 saylı əmri ilə təsdiq edilib. Kitab 2006-cı ildə "Təhsil" nəşriyyatında çap olunub. Giriş ön söz və beş fəsil hissədən ibarət olan kitab jurnalistika fakültəsində təhsil alan tələbələr, bu sahədə çalışan jurnalistlər və Azərbaycan mətbuat tarixi ilə maraqlananlar üçün faydalı mənbədir. Kitabın elmi məsləhətçisi Əhməd Vəliyev, rəyçilər Nizami Cəfərov və Əjdər Ağayevdir.

## *Eyni zamanda*

**A.Şahverdiyev 2009-2010 və 2011-ci illərdə Bakı Avrasiya Universiteti tələbələrinin bakalavr hazırlığı üçün müxtəlif fənlər üzrə dərs proqramları - "Hərbi Mətbuat Tarixi", "İxtisaslaşma-Radio və Televiziya", "Jurnalist sənətkarlığı və tələbələrin praktik yaradıcılığı", "Azərbaycan Mətbuat Tarixi", "Jurnalistikaya giriş", "Radio və Televiziyada ədəbi iş", "Ədəbi redaktə", "Kütləvi informasiya vasitələrinin dili və üslubu", "Nəşriyyat işinin əsasları", "Azərbaycanda müasir KİV sistemləri", "Tələbələrin tədris təcrübəsi", "İnformasiyalı cəmiyyət", "Qlobal İnformasiya Cəmiyyəti və Milli Təhlükəsizlik", "Tələbənin istehsalat və diplomqabağı təcrübəsi" və s. hazırlayıb.**

## *İxtisarla*

## *Akif Şahverdiyev jurnalist və pedoqoji fəaliyyətilə*

paralel olaraq bədii yaradıcılıqla da məşğul olmuş, həm nəsr, həm də nəzmdə qələmini sınaqdan keçirmişdir. Onun ilk müəllifi olduğu kitab "Ömrə sığmayan həyat" adlı sənədli-bədii povestdir. Ön söz, yeddi fəsil və son söz əvəzi hissədən ibarət olan əsər metodist müəllim, jurnalist, tərcüməçi Natiq Yusif oğlu Səfiyevin həyat və yaradıcılığına həsr olunub. Kitabın elmi məsləhətçisi Vaqif Arzumanlı, elmi redaktoru Əjdər Ağayev, redaktoru Tərənə Yaşarqızıdır. 170 səhifədən ibarət kitab 1988-ci ildə "Əbilov, Zeynalov və oğulları" mətbəsində çap olunub.

Müəllifi olduğu "Ruhun harayı" kitabı Qazax rayonunda "Balaxanım ocağı" deyilən müqəddəs bir ailənin üzvü - Novruzova İmamirə Qədim qızına həsr olunub. 96 səhifədən ibarət olan bu kitab 2000-ci ildə "Təbib" nəşriyyatında çap olunub.

**2004-cü ildə "Təhsil" nəşriyyatında çap olunan, 154 səhifəlik "Vüsala doğru" (povest, hekayə və şeirlər) kitabında müəllif adət-ənənə və mənəviyyatla bağlı bir sıra problemlərə toxunmuşdur. Kitabın redaktoru yazıçı-ilahiyyatçı Oqtay Salamzadədir.**

Eyni zamanda Akif Şahverdiyev deyimlər və aforizmlərlə zəngin olan "Söz qalası" ("Təknur" nəşriyyatı, 2013. 122 səh. Redaktor Şahlar Göytürk (Məmmmədli)) və "Güzgü" ("Təknur" nəşriyyatı, 2016. 140 səh. Redaktor İsmayıl Kazımov. Bədii redaktor Gülər Eldarqızı) kitablarının müəllifidir. Sosial şəbəkələrdə paylaşdığı deyimlər toplanan hər iki kitabda müəllif dilimizin zənginliyini qorumaqla milli-mənəvi sərvətlərimizi qiymətləndirməyə çalışmış, gənclərə əxlaqi dəyərləri təlqin etməyə cəhd etmişdir.

## *Kövrək hisslərlə onu da qeyd edim ki,*

"Güzgü" kitabı ədibin yaradıcılığının son məhsuludur. 2018-ci ilin qış aylarında Azərbaycan cümhuriyyətinin yaranmasının 100 illiyi ilə əlaqədar olaraq tədqiqat işi aparan Akif Şahverdiyev Azərbaycan Cümhuriyyətinin qurucuları, eləcə də həmin ərəfədə (1918) - AXC dövründə xidmət etmiş 21 general haqqında, Azərbaycan parlamentinin işçiləri haqqında, 1920-ci il aprelin 28-də Azərbaycan Xalq Cümhuriyyətinin 11-ci Qızıl Ordu tərəfindən işğal edilərək böyük terror dalğasının başlanması və nəticədə yüzlərlə azərbaycanlı hərbçinin qətlə yetirilməsi, (onların böyük hissəsi AXC ordusunda xidmət edən yüksək rütbəli şəxslər idi) güllələnən 8 azərbaycanlı general haqqında Facebook səhifəsində ardıcıllıqla oxucuları məlumatlandırıb. Təəssüf ki, Bakının Türk ordusu tərəfindən işğaldan azad edilməsinin 100 illiyi münasibətilə şəhərdə



keçirilən möhtəşəm bayram tədbirlərini və hərbi paradı görmək ona qismət olmadı. O, öz Facebook səhifəsində, eləcə də müxtəlif sahələri əhatə edən yaradıcılığında tariximizi, ədəbiyyatımızı yaşadan materiallar ərməğan etdi, miras qoydu. A.Şahverdiyevin ədəbi-bədii, publisist yaradıcılığını, eləcə də pedaqoji fəaliyyətindəki nəaliyyətlərini onun şəxsiyyətindən kənarda təsəvvür etmək olmaz. O, özünün intellektual səviyyəsi ilə həmişə sayılıb, seçilənlərdən olub. Qürur, vətəndaşlıq, humanizm, müdriklik və insanilik onun şəxsiyyətini səciyyələndirən əsas amillərdir. Tərifdən, şan-şöhrətən daim uzaq qaçan təvazökar, təmənnasız bir insan idi Akif Şahverdiyev.

"Deyilən söz ömürdən qısadırsa -cahilliyin, ömür qədərsə- adilliyin, sahibindən sonra yaşayacaqsa - aqilliyin nişanəsidir" deyən ədib bu gün "aqil insan" adına layıq görülür. Bəli, onun qələmindən çıxan hər bir söz indi, öz sahibindən sonra yaşayır, aqilliyin dərəcəsinə çatır. İllər ötsə də onun adı xələflərinin, eləcə də hər bir vətənpərvər insanın qəlbində yaşayacaq. Akif Şahverdiyevin müəllifi olduğu məqalələrdə, bədii əsərlərdə vətənə misilsiz sevgisi, ləyaqəti, əzimliyi duyulur. İnsan qəlbinin ən kövrək, incə notlarına toxunur. Şeirlərindən və sosial şəbəkədə paylaşdığı yazılarından onun dərdlə dost, yoldaş olduğu, öz şəxsi həyatındakı çətinliklərlə yanaşı doğulduğu, yaşadığı vətən torpağının da iztirabı var. O, ictimai haqsızlıqlarla, ədalətsizliklə barışa bilməyən bir ruh sahibi idi. Həyatı ilə yaradıcılığı arasında düz mütənasiblik olan müdrik ustadın silahı ancaq və ancaq mübariz qələmi idi.

*Çiliкləndi ürəyim,*
*Əl görmədi kürəyim,*
*Daşdan çıxdı çörəyim,*
*Yaşadım...*

*Yolum dirəndi daşa,*
*Dərdimlə doldum yaşa,*
*Ümidlə qaldım qoşa,*
*Yaşadım...*

*Əyri yola getmədim,*
*Arzu etdim, yetmədim,*
*Nəsə, ölüb-itmədim,*
*Yaşadım...*

**"Daşdan çıxdı çörəyim, yaşadım" - deməklə əziyyətli, dərdli-kədərli bir həyat yolu keçsə də ümidi isə heç vaxt itmir, "Ümidlə qaldım qoşa, yaşadım..."söyləyir. "İnam itər, ümid itməz" düşünərək, inamını itirsə də ümidini heç vaxt itirmir.**

**"İnsan ilk dəfə gözüyumulu doğulur, gözü sonra açılır. İkinci dəfə sevəndə doğulur - açıq gözü bağlanır.**

İnsan ilk dəfə sevdiyini itirəndə ölür və gözü açılır. Gözü açıq və bağlı, fərqi yoxdur, ümidini itirəndə isə, birdəfəlik ölür." (Akif Şahverdiyev)

Ölümündən sonra müxtəlif mətbu orqanlarda və saytlarda Akif Şahverdiyevin əziz xatirəsini uca tutan, haqqında yazılmış neçə-neçə məqalələr çap olunmuşdur.

Şair-publisist Əbülfət Mədətoğlu Akif Şahverdiyevlə bağlı xatirələrindən yazır:

***"Akiflə ilk tanışlığım 1989-cu ildə Beyləqanda olub. O zaman mən Xankəndində Dağlıq Qarabağ Təşkilat Komitəsində çalışırdım. Beyləqana mətbuat nümayəndəsi kimi gəlmişdim. Müəyyən işlərlə bağlı informasiya toplamalı idim. Bir gün Beyləqanda bir çayxanada dostlarla çay içib söhbət edirdik. Bu zaman Akif bizə yaxınlaşıb görüşdü. Dostlarım bizi tanış etdi. Dedilər ki, yerli jurnalistdir, Bakıda çalışır. Rayona qonaq gəlib. Beləcə Akiflə tanış olduq.***

1991-ci ilin oktyabrın 30-dan 31-ə keçən kecə bizim kənd işğal olandan sonra ailəliklə Füzuli rayonuna gəldik. Qısa bir zamandan sonra isə Beyləqana köçərək uşaq baxçasında məskunlaşdıq. Həmin uşaq baxçası Akif gilin evindən hardasa 600-700 metr məsafədə idi. Artıq onda mən hərbi jurnalist idim. "Xalq Ordusu" (indiki "Azərbaycan Ordusu") qəzetində cəbhə müxbiri kimi fəaliyyət göstərirdim. Beyləqan rayonuna - batalyona tez-tez gedirdim. Akif müəllimgilin evinin yanında Xocavənd rayonunun polis şöbəsi yerləşirdi. İkinci görüşümüz elə orda- evlərinin yaxınlığında oldu. Məni evlərinə dəvət etdi. Oturub çay içdik. Ailəsi ilə tanış etdi. Dedi ki, nə lazım olsa, nəyə ehtiyacın olsa, biz burdayıq. Anası rəhmətlik çox mehriban qadın idi. Beləcə, münasibətlər davamlı oldu. Tez-tez qarşılaşırdıq.

***1994-cü ilin fevral ayında ordudan təxris olundum və Bakıya gələrək Azərbaycan Nəşriyyatında- "Ədalət" qəzetində çalışmalı oldum. Akif də səhv etmirəmsə 3-cü mərtəbədə oturardu. Bir gün koridorda rastlaşıb görüşdük. Beləcə, münasibətlər daha da şirinləşdi. Müəllifi olduğu kitabları aftoqrofla mənə verdi. Bir neçə yazılarını göndərdi, qəzetimizdə çap etdim.***

## *Axırıncı görüşümüz*

isə Bakıda - Hava Limanında oldu. Bakıdan Naxçıvana uçan təyyarədə. Təyyarəyə qalxanda gördüm ki, Akif ortada dayanıb, yanında oturanları yerləşdirir. Salamlaşdıq. Əllərində şirinliklər, xonçalar var idi. Dedim xeyirdimi? Dedi xeyirdi inşallah, dostum İlhamın oğlu üçün elçiliyə gedirik. Çox sevindim, təbrik etdim. Naxçıvanda limana enəndə xeyli söhbət etdik. Məni təzə qohumlarla tanış etdi. Vədələşdik ki, Bakıya qayıdanda görüşüb, söhbət edərik. Təəssüf ki, bu bizim son görüşümüz oldu. O, mənim yaddaşımda dəyərli jurnalist, gözəl insan, ən əsası isə sözə xidmət edən bir insan kimi qaldı. O, sözə xidmət edirdi, qələmə qulluq edirdi. Allah rəhmət eləsin!"

AMEA Dilçilik İnstitunun elmi işçisi Şahlar Göytürk "Ölümün çiçək açsın" məqaləsində ustadla bağlı xatirələrindən belə yazır:

**"İnsanlar yuxudadır, öldükləri zaman ayılacaqlar." Bəlkə elə buna görə bu əbədi ayrılıq mənə yuxu kimi gəlir, axirət dostum Akif müəllim! Ruhun şad olsun!**

**Səninlə bir yerdə işləməyi çox arzulayırdım, çünki vaxtilə BAAU-da iş yoldaşı olmuşduq. Sənin necə dəyərli bir ziyalı, səmimi və ləyaqətli şəxsiyyət olduğunu yaxşı bilirdim. Sonra Monitorinq şöbəsi təzə-təzə yaranında iki ay təmənnasız şöbəmizə yardımçı oldun...**

İki il idi ki, işsiz idin. Direktora işlə bağlı xahiş etdim. O da razılaşdı, işə götürəcəyinə söz verdi. Sevincimiz yerə-göyə sığmırdı… Dedin ki, eşidən, bilən bütün qohum-əqrabam Dilçilik İnstitutunda işə düzəlməyim münasibətilə zəng edib məni təbrik edir. Ailəmizdə toy-bayramdır. İşlə bağlı əmrin veriləcəyi gün gözləmədiyimiz bir cavab aldıq: "İxtisasınız uyğun deyil. Sənədləriniz burada qalsın, əlaqə saxlayarıq". Ayrılanda mənə xeyirxahlıq üçün dönə-dönə təşəkkür elədin. "Bu mənim son şansım idi" - dedin…

**Direktor iki gün bundan qabaq "dostunu işə götürəcəyəm" deyəndə sevinmədim. Artıq gec idi.**

**Ayrılıq xəbərin məni bərk sarsıtdı. Haqq dərgahında məqamın uca olsun, Akif müəllim!**

**Ölümü xatırlayan insan Tanrının sevimli bəndəsidir…**

**Bu Sənin sonuncu şeirin idi…**

**Gülər Eldarqızı**